Arazın o tayından...

**Güney Azərbaycanın mərkəzi şəhəri, tarixin ayrı-ayrı dövrlərində ölkənin paytaxtı olmuş Təbrizi keçmişdə və günümüzdə məşhurlaşdıran memarlıq abidələrindən biri də Göy məsciddir. Azərbaycan memarlığının ən dəyərli nümunələrindən olan Göy məscid İranda türklərin yüksəlişi dövrünün qüdrət və əzəmətini qoruyub saxlayan nadir tikililərdən biridir.**

# Təbrizin memarlıq tacı – Göy məscid



Orta əsrlər tarixindən bəllidir ki, XV əsrdə Təbriz özünün memarlıq-planlaşdırma inkişafının yüksəliş çağlarından birini keçmişdir. O dövrdə Qaraqoyunlu hakimi Cahanşah Həqiqi (1438–1467), Ağqoyunlu hökmdarları Uzun Həsən (1453–1478) və Sultan Yaqub (1478–1490) Azərbaycanın paytaxtına çevirdikləri bu şəhərdə geniş, əzəmətli şəhərsalma işləri görmüşlər. Mərkəzi Sahibabad meydanı ətrafında yaradılmış inzibati, dini və ticarət binaları hesabına Təbrizin ümumi şəhər mərkəzi xeyli böyümüş və daha təntənəli olmuşdur. Bu dövrdə ərsəyə gətirilmiş irihəcmli abidələr – Müzəffəriyyə, Qeysəriyyə, Nəsriyyə, Maqsudiyyə, Həşt Behişt saray kompleksi, Baqe Şemal və başqa nadir tikililər Azərbaycan memarlığının şahanə nümunələridir. Göy məscid bu sırada məxsusi yer tutur.

Böyük Azərbaycan sərkərdəsi və dövlət xadimi, yüksək təhsilli hakim və incəsənət hamisi Cahanşah Həqiqi təxəllüsü ilə Azərbaycan türkcəsində şeirlər yazmış, çoxsaylı gözəl binaların sifarişçisi olmuşdur. Məşhur türk alim-səyyahı Övliya Çələbi (XVII əsr) Təbrizin ən yaxşı tikililərini sadalayarkən Cahanşahın tikdirdiyi “Cahanşah imarəti”, “Cahanşah hamamı”, “Cahanşah karvansarası”, “Cahanşah binası” kimi abidələrin də adlarını çəkmiş və qeyd etmişdir ki, “Təbrizdə ən böyük mədrəsə Cahanşah mədrəsəsidir”.

Cahanşah dövrünün ən görkəmli memarlıq abidəsi 1467-ci ildə tamamlanmış Müzəffəriyyə kompleksidir. Onun tərkibinə cümə məscidi, xanəgah, kitabxana, mədrəsə, türbə və digər tikililər daxil olmuşdur. Kompleksin qərb hissəsində isə Cahanşah hamamı yerləşmişdir. Bu nəhəng memarlıq kompleksindən dövrümüzə yalnız baş tikili – memarlıq tarixinə “Göy məscid” adı ilə daxil olmuş əzəmətli cümə məscidi gəlib çatmışdır.

Abidədə yüzilliklər boyu formalaşıb yetkinləşmiş bədii memarlıq üslubu, planının ustalıqla hazırlanması, kompozisiya kamilliyi, motiv ifadəliliyi və elementlərin yüksək bədii tərzdə uzlaşdırılması, zəngin ornament nəfisliyi əks olunmuşdur. Qaraqoyunlular dövrünün yadigarı, vaxtı ilə böyük və əzəmətli memarlıq kompleksi sayılmış Göy məscid Təbrizin zəlzələlərə həssaslığı səbəbindən zaman-zaman aşınmış, XIX əsrdə dağılıb xaraba vəziyyətə düşmüş, XX əsrin 70-ci illərində ortabab təmir edilmişdir.

İnşası zamanı 52 metr uzunluğunda olmuş baş fasadın qarşısında geniş həyət, hasara alınmış ərazidə hovuz olmuşdur. Mərkəzi günbəzli məscidin özünəməxsus planına, binalarına Azərbaycanın başqa dini binalarında rast gəlinmir. Quran yazıları ilə örtülmüş və məscidin giriş baştağının dərin tağçasını dövrələyən “П” formalı çərçivə içərisindəki yazı Müzəffəriyyə kompleksinin tikilmə tarixini – hicri 870-ci ili (1467) göstərməklə “Əqəl-əl–ibad (aciz qul) Neymətullah bin Məhəmməd əl–Bəvvab” sözləri ilə bitir. Bir qrup araşdırmaçı bu yazıya əsaslanaraq güman edirlər ki, Göy məscidin memarı Neymətullah Bəvvabdır. Lakin geniş tədqiqat göstərir ki, Neymətullah Bəvvabı dövrün mahir xəttatı olmuşdur.

Ötən əsrin 70-ci illərində Göy məscidin təmizlənməsi və bərpası zamanı üstü yazılı kvadrat kaşı lövhə tapılmışdır. Onun üstündə qabarıq hərflərlə nəsx xətti ilə yazılmışdır: “Be sərkareye İzzətdin Qapuçi ibn Məlik”. Beləliklə, Göy məscidin inşasına başçılıq edən mütəxəssislər müəyyənləşdirilmişdir: baş memar– Xacə Əli Küçəçi, monumentalist xəttat – Mövlanə Nemətullah Bəvvab və baş iş icraçısı – İzzətdin Qapuçi.

“Cahanşah məscidi” tikildikdən az sonra Təbrizin ən məşhur memarlıq abidəsi olmuş, bugünədək bir çox memar, səyyah və alimin diqqətini özünə çəkmişdir. Göy məscidin iki əsas hissədən ibarət olan planı ox simmetriyalıdır. Onun düzbucaqlı hissəsini mərkəzi kvadrat salon (16,5 x 16,5), ona üç tərəfdən birləşən qalereyalar və iki künc salonu əmələ gətirir. Planda kvadrat biçimli olan üçüncü salon – Göy salon cənub tərəfdən mərkəzi salona birləşir və məscidin planına bütövlükdə “T” şəkilli biçim verir.

Göy məscidin planı quruluş yığcamlığına, cizgi dəqiqliyinə və funksional məsələlərin düşünülmüş təşkilinə görə öz sələflərindən fərqlənir. Təbriz məscidi həm də daha irimiqyaslıdır–onda mərkəzi günbəzin aşırımı böyüdülmüş, uyğun iri elementlər–dövrələmə qalereyalar və künc salonları işlədilmişdir. Bununla yanaşı, Göy məsciddə bütün elementlər güclü şəkildə mərkəzi salona tabe edilmişdir ki, bu da daha əvvəlki dövrə aid cümə məscidlərində zəif hiss olunur.

Təbrizin Göy məscidi başlıca olaraq özünün fasad və interyerlərinin nəfis və ecazkar bəzəkləri ilə şöhrət tapmışdır. Bu memarlıq dekorasiyalarında tətbiq edilmiş bədii üsul və vasitələr olduqca çox olmuşdur. Mühəndis-konstruktiv cəhətdən Göy məscid Təbriz memarlıq məktəbinin ən böyük nailiyyətlərindəndir. Zəlzələ və baxımsızlıq üzündən Göy məscidin örtükləri uçmuşdur. Buna görə də indiki görkəmi onun həcm-məkan quruluşu haqqında dolğun təsəvvür yaratmır.

Göy məscid orta əsr Azərbaycan memarlıq dekorunun, az qala, bütün nailiyyətlərini özündə toplamışdır. Onun zəngin ornamental kompozisiyaları müxtəlif materiallarla və müxtəlif üsullarla yerinə yetirilmişdir: yığma kaşı mozaikası, mərmər və gəc üzərində oyma, bişmiş və şirəli kərpiclərin naxışlı hörgüsü və s. Buna baxmayaraq, Göy məscidin bəzəyi, hər şeydən öncə, inkişaf etmiş kaşı örtüyüdür. Bu bəzək öz yüksək bədii və texniki keyfiyyətləri ilə bütün görkəmli Yaxın Şərq memarlığı araşdırmaçılarının diqqətini cəlb etmişdir. Onların çoxu bu regionda keramik memarlıq dekorunun inkişafında Təbrizin rolunu yüksək qiymətləndirmiş və göstərmişlər ki, kaşı mozaikası özünün ən yüksək səviyyəsini Göy məsciddə almışdır.

Göründüyü kimi, XV əsrdə yüksək ixtisaslı yerli ustalar Təbriz memarlıq məktəbinin zəngin ənənələri mühitində şöhrəti Azərbaycanın hüdudlarından kənara çıxan nadir memarlıq əsəri yaratmışlar. Təsadüfi deyil ki, qüdrətli Azərbaycan Səfəvilər dövlətinin əsasını qoymuş “Xətai” təxəllüslü I İsmayıl özünü Göy məsciddə şah elan etmişdir.

**Hazırladı:**
**Tahir AYDINOĞLU,**
**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2022.- 23 noyabr.- S.5.